BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 05 (05) MART (MART) 2006

# VAHHABİLİK

*Yadulla Paşayev*[1]

**Summary**

**Vahabism is a religious-political movement that propagandizes returning to the early purity of Islam, observing principles of monotheism most seriously and refusing to worship sacred places. This movement demands from Muslims to deviate from luxury in life, clothes and religious ceremony. Vahabism is an extreme development of principles and ideas of hambali faith. It was founded in the central areas of Arabian Peninsula in 18th century and very soon became one of the strongest religious political movement in that area. The movement named Vahhabism by their oppositionists while the founder of the movement was alive. And even nowadays the movement is known by this name.**

## Giriş

Bildiyimiz kimi, Vəhhabi hərəkatının başladığı Hicaz və Nəcd ərazisi XVIII əsrdə Osmanlı hakimiyyəti altında idi. Buna görə də XVIII əsrdə dünyanın və Osmanlı dövlətinin siyasi vəziyyətini gözdən keçirməliyik. Bu da bizə Vəhhabi hərəkatının başlanma səbəblərini daha aydın göstərəcək.

Osmanlı dövləti Korlofça müqaviləsi ilə bir çox torpaqlarını itirdi. Bu müqavilədən sonra Avropa diplomatiyasından bir növ asılı vəziyyətə düşdü. Avropa dövlətləri də Osmanlının zəifləməsindən öz mənafeləri üçün istifadə etmək istəyirdilər. Bu dövrdə Osmanlı dövləti bir birinin ardınca öz ərazilərini itirməyə başladı. 1683-1699-cu ilə qədər davam edən mühabirə Osmanlı dövlətini yorğun və bezgin hala gətirmişdi. Osmanlı dövlətinin ruslarla başladığı Qaynarca müqaviləsindən sonra Av-

[1] Fəlsəfə Elmləri Namizədi.

ropa qitəsi müharibələr, siyasi və iqtisadi mənfəətlərə görə bir böhran içərisində idi. Bu çəkişmələr nəticəsində Osmanlı dövləti zəifləmiş, hərbi və texniki cəhətdən başqa Avropa dövlətlərindən geri qalmağa başlamışdı. Avropa dövlətləri də zəifləməkdə olan Osmanlı dövlətini həm parçalamaq, həm də öz əməllərinə və mənfəətlərinə alət etmək istəyirdilər.

XVIII əsrin ortalarında Nəcddə qəbilə-tayfa münasibətlərinin zəifləyərək aradan getməsi və feodalizmə xas olan münasibətlərin möhkəmlənməsi davam edirdi. Nəcd bölgəsində ümumi iqtisadi vəziyyət olduqca ağır və mürəkkəb idi. Köçəri ərəb tayfalarının təəssübkeş və döyüşkən əhval-ruhiyyəli rəhbərlərinin özbaşınalığı, gözlənilmədən alovlanan və kəsilmək bilməyən qəbilələr arası münaqişələr, ticarət karvanlarına basqınlar, oturaq həyat sürən əhalinin köçəri tayfalar tərəfindən daim qorxu içində saxlanması bölgədə ticarətin, əkinçiliyin və sənətkarlığın inkişafı üçün ciddi maneə törədirdi. Belə bir şəraitdə Nəcddə müxtəlif yönümlü birlik hərəkatları meydana çıxır, onlar Nəcd qəbilə və tayfalarını müxtəlif dini və siyasi prinsiplər əsasında birləşdirməyə cəhd göstərirdilər. Bu birlik hərəkatının rəsmi ideologiyası Vəhhabi məzhəbi idi. Vəhhabi məzhəbinin könüllü təbligatçıları (mutavviun) bölgənin müxtəlif yerlərində təbliğat apararaq, ərəb tayfalarını birləşdirməyə çalışırdılar. Vəhhabi çağrışı feodal özbaşınalığından təngə gəlmiş kənd əhalisi və yoxsullaşmaqda olan bədəvi əhali arasında sürətlə yayılmağa başladı[2].

Nəcddə əl-Ərid məntəqəsi öz münbit torpaqları ilə məşhurdur. Əl-Cübeylədən ər-Riyada qədər 60 mil məsafədə uzanan Vadi-hənifə burada yerləşir. Buranın ən məşhur inzibati və mədəniyyət mərkəzləri əl-Cübeylə, Dəriyyə, Büreydə, Ünzə və Şeyx Məhəmməd bin Əbdülvəhhabın vətəni olan Üyeynədir. Yuxarıda adı çəkilmiş yerlərdən başqa qalan ərazini qumsal və yararsız torpaqlar olan səhra təşkil edir.

Özünün çox əsrlik tarixi boyu Nəcd heç bir zaman xarici hökmranlığa və ya imperatorluğa tabe olmamış, yalnız Ərəbistan yarımadasında İslam yayıldıqda bu dini qəbul etmişdir. Lakin eyni zamanda qeyd etmək lazımdır ki, burada islamdan geri çəkilmə halları da az olmamışdır. Məsələn, əl-Ərid məntəqəsində məskunlaşan Bəni-Hənifə qəbiləlsi "ya-

---

[2] 4. Xanci S.T., Məhəmməd bin Əbd əl-Vəhhabın təlimi: Tarixi və ideya aspektləri, Bakı, Əbilov, Zeynalov və qardaşları, 2000, s.3-4

lançı peyğəmbər" Müseyləmənin fitnəkar hərəkatını dəstəkləmişdir. Əməvilər və Abbasilərin hakimiyyəti dövründə də Nəcd özünün qəbilə quruluşunu qoruyaraq müstəqil həyat sürmüşdü. Xarici qüvvələr Ərəb körfəzinə və İrana yaxın olduğuna görə münasib ticarət mövqeyinə malik olan Ləhsa bölgəsinə və müsləmanların dini mərkəzləri Məkkə və Mədinəyə yaxın olan Hicaza daha çox maraq göstərirdilər. Bu vəziyyət Osmanlı hökmranlığı dövründə də beləcə davam etdi. Tarixi mənbələrin göstərdiyinə görə osmanlılar Ərəbistan yarımadasının mərkəzi əyalətləri olan əl-Əhsada və Hicazda öz nüfuzunu möhkəmlətməyə çalışırdılar.

Ümumiyyətlə, Vəhhabi hərəkatının başlanmasından əvvəl Nəcdin siyasi həyatını bir-birindən təcrid olunmuş qəbilələr təşkil edirdi. Bu qəbilələrin hamısı o vaxt müsəlman aləmində hökmranlıq edən Osmanlı üsuli-idarəsindən eyni dərəcədə uzaq idi. Bu uzaqlıq və təcridolunma bir tərəfdən Nəcd qəbilələrinin istəyindən irəli gəlirdisə, digər tərəfdən bu onlara Osmanlı hakimiyyət dairələrinin göstərdiyi laqeyidliyin nəticəsi idi[3].

Bu dövrdə Osmanlı imperiyasının tərkibindəki xalqların milli-azadlıq hərəkatı güclənmişdi. Bu prosesdə Rusiya-Osmanlı müharibələrində Osmanlı dövlətinin məğlubiyyəti də az rol oynamırdı. Çar hökümətinin işğalçılıq siyasətindən asılı olmayaraq Balkan ölkələrinin xrisitian əhalisi Rusiyaya meyilli idi. Onlar rusları dini, dili bir qardaşlarını xilaskar kimi qarşılayırdılar.

Balkanlarda yunanların, bolqarların, qaradağlıların, serblərin, rumınların, Misirdə və Ərəbistan yarımadasında ərəblərin Osmanlı imperiyasına qarşı etirazları artmaqda idi.

Başı Avropa və Rusiya ilə müharibələrə qarışmış Osmanlı dövləti Ərəbistan yarımadasına o qədər də çox nəzər yetirə bilmirdi. Daxildə olan böhranlar vəziyyəti daha da gərginləşdirirdi. Vəhhabi hərəkatı məhz bu dövrdə ortaya çıxmışdı. Buraya XVIII əsrdə baş verən milliyətçilik hərəkatını da əlavə etsək, məsələ daha da aydınlaşar. Onu da qeyd etmək lazımdır ki, Osmanlı sultanları III Səlim və II Mahmudun başı Balkan üsyanları və Rusiya müharibələrinə qarışdığı üçün vəhhabilərə qarşı ordu

---

[3] Xanci S.T., Məhəmməd bin Əbd əl-Vəhhabın təlimi: Tarixi və ideya aspektləri, Bakı, Əbilov, Zeynalov və qardaşları, 2000, s. 8

ayıra bilmirdilər. Ona görə də bu işi Bağdad, Dəməşq və Ciddə də olan paşalarına tapşırırdılar[4].

**Məhəmməd bin Əbdülvəhhabın həyatı və Vəhhabiliyin tarixi**

Vəhhabilik sünnilikdə Peyğəmbər dövrünün erkən islamının saflığına qayıtmağı, təkallahlıq prinsipinə ən ciddi şəkildə riayət etməyi, müqəddəslərə və müqəddəs yerlərə sitayişdən imtina etməyi, başqalarından götürülən yeniliklərdən (bidət) imtina etməyi təbliğ edən dini-siyasi cərəyandır, müsəlmanlardan məişətdə, geyimdə və ayinlərdə cah-cəlalın hər cür təzahürlərindən çəkinməyi tələb edir. Hənbəli məzhəbinin ideya və prinsiplərinin ifrat şəkildə inkişafıdır [5].

Vəhhabilik XVIII əsrin ortalarında Ərəbistan yarımadasının mərkəzi ərazilərindən olan Nəcddə meydana çıxmış və tezliklə bölgədə güclü dini-siyasi hərəkata çevrilmişdir. Vəhhabilik bu gün Səudiyyə Ərəbistanının rəsmi məzhəbi sayıla bilər. Vəhhabilik adı bu təriqətin qurucusu həyatda olarkən müxalifləri tərəfindən verilmişdi. Məzhəb bu gün daha çox bu adla tanınmaqdadır.

Vəhhabiliyə türk tarixində «xaricilik hərəkatı» olaraq baxılmış və bu şəkildə adlandırılmışdır[6]. Davranışlarındakı sərtlik, imanlarındakı təəssüb və öz inanclarında olmayanları kafirlik və müşriklikdə günahlandırdıqlarına görə vəhhabiliklə xaricilik arasında oxşarlıqlar tapmaq olar. Xaricilik təliminə görə islamın dini ehkamlarına öz iş və hərəkətləri ilə əməl etməyən dindar heç bir çətinlikdən özünü qurtara bilməz və o cənnətə nail ola bilməz. Hər bir xaricinin vəzifəsi bu təriqət təşkilatının proqramını həyata keçirməkdən ibarətdir. Bu tələb başqa dindən olanlara qarşı deyil, xaricilik məzhəbini və bu məzhəbin siyasi prinsiplərini tanımayan müsəlmanlara qarşı yönəldilmişdi. Xaricilərə görə başqa məzhəbdən olan müsəlmanlar öz canlarını cəhənnəm əzabından qurtarmaq hüququna malik deyildilər[7].

---

[4] Луцкий Т. В., Новая история Арабских стран, Москва, 1965, s.77

[5] İslam, Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1985, s.38

[6] Ecer V.A.,Tarihte Vehhabi hareketi ve etkileri, Ankara, Avrasiya stratejik araşdırmalar merkezi yayınları, 2000,s.7

[7] Belyayev Y.A., Müsəlman təriqətləri, (tərcümə edən: Əsədov B.) Bakı, Azərbaycan Ensiklopediyasının baş redaksiyası, 1991, s.35

Bu məzhəbin banisi Teym (Təmimi) qəbiləsindən olan Məhəmməd bin Əbdülvəhhab bin Süleymandır[8]. O, 1703-cü ildə indiki ər-Riyad şəhərindən 70 km aralıda yerləşən əl-Üyeynə qəsəbəsində, qazı ailəsində anadan olmuşdur. İlk təhsilini Üyeynə qazısı olan atasından almışdır. Kiçik yaşlarından Quranı əzbərləmiş, təfsir, hədis və fiqh elmlərini öyrənmişdi. O, çox yerlər gəzmiş, Məkkədə Həcc ziyarətində olmuş və Mədinədə dörd il oxumuşdur. Mədinədə olarkən Abdulla bin İbrahim bin Seyf ən-Nəcdi, Süleyman əl-Kürdi, Məhəmməd əs-Sindi kimi alimlərdən dərs aldı[9]. Bəsrə, Bağdad, Dəməşq və Qahirə kimi şəhərlərdə müxtəlif məzhəblərdən olan ilahiyyat alimləri ilə müzakirələrə - disputlara girmiş, fikirləri ifrat dərəcədə kəskin və mühafizəkar olduğu üçün mübahisələrə səbəb olmuşdur[10].

Təqribən 21 yaşında ikən İraq və İrana səyahət etmiş və təsəvvüflə məşğul olmuş, hətta az bir müddət də təsəvvüf dərsi keçmişdir[11].

Məhəmməd bin Əbdülvəhhab 37 yaşında ikən səyahətə başladı. O təxminən 5 il Bəsrədə, 5 il Bağdadda, 1 il Kürdüstanda, 2 il Həmədanda qaldı. Nadir şahın hakimiyyətinin başlanğıcında o İsfahana gedir və orada 7 il qalır, Qumda da bir müddət yaşayır. Səyahət edərkən müxtəlif adlardan istifadə edirdi. Abdulvəhhabın uzun səyahətləri və ilahiyyatla təkidlə məşğul olması onun dünya görüşünün formalaşmasında böyük rol oynadı. Bu səyahətlər ona Ərəbistan və qonşu ölkələrin mədəniyyətini öyrənməyə və bunlara öz münasibətini bildirməyə, həmçinin ilahiyyat elmlərini, təfsiri, hədisi öyrənməyə və öz məzhəbi üçün ideyalar tapmağa imkan verdi. Onun ideyaları Yaxın və Orta Şərqin sosial-siyasi və mənəvi həyatında özünə məxsus iz buraxdı[12].

Vəhhabilər özlərini ’’Müvəhhidun’’ adlandırır və İbn Teymiyyənin izah etdiyi kimi Əhməd bin Hənbəlin məzhəbini davam etdirən sünnülərdən olduqlarını bildirirlər. Onlar ’’biz, etiqadda sələf, əməldə də Hənbəli məzhəbindənik’’ deyirlər. Əhməd bin Hənbəl etiqad məsələsində sələf

---

[8] Uzunçarşılı İ.H., Osmanlı tarihi, Ankara, Türk tarih kurumu basımevi, 1988, VI/I, s.441

[9] Ecer V.A. a.g.e. s. 52

[10] Sübhani U.C., Vəhhabi məzhəbi, Bakı, Əbilov, Zeynalov və oğulları, 1999, s.7

[11] Fazlur Rahman., İslam (tərcümə edənlər: A.Mehmed, D.Mehmed) İstanbul, Ankara okulu yayınları, 2000, s.251

[12] Стратегический анализ, Баку, 2002, май, с.68

məzhəbinin nəsci qolunu təmsil edir. Onun əməldəki yolu da budur. Buna görə də ''biz əməldə və e'tiqadda hənbəliyik, vəhhabi deyilən bir şey yoxdur, Məhəmməd bin Əbdülvəhhab elmi və feli olaraq bu məzhəbi yeniləşdirən bir Şeyxul-İslamdır'', - deyirlər[13]. Ancaq bunlar etiqad və əməldə yeni əsaslar qəbul etmiş və təəssübdən qan da tökmüşlər. Vəhhabilər İslamda ən mütəəssib fikirləri mənimsəmişlər. Hər şeyin zaman keçdikcə dəyişdiyini, İslam dini yerinə sapıklığın törədiyini, orta çağdakı islami yaşayışa dönmək gərəkdiyini irəli sürmüşlər. Bunlar bəzi İslam böyüklərinin səhv hesab etdiklərini küfür olaraq qəbul etmişlər. Əhməd bin Hənbəl, İbn Qəyyum əl-Cövziyyə və İbn Teymiyyənin görüşlərini əsas aldıqlarını söyləyərək onların dində qadağan hesab etdikləri səhvləri böyük günah kimi yaymışlar.

Olduqca məhdud görüşə sahib olan vəhhabilər başqa islam məzhəblərini qəbul etmirdilər. Lakin son illərdə Səudiyyə Ərəbistanının dövlət başçıları məzhəbi az da olsa yumuşaltmışlar. Məsələn, onlar 1936-cı ildə Yəmənlə bir müqavilə bağlayaraq Zeydiyyə məzhəbini tanıdılar[14].

Məhəmməd bin Əbdülvəhhab Mədinədə oxuduğu zaman İbn Teymiyyənin fikirləri ilə tanış olmuş və daha sonra Bəsrədə ikən tövhid mövzusunda müzakirələrə girişərək dinin birbaşa Quran və Peyğəmbərin sünnəsindən öyrənilməsini irəli sürmüşdür. Daha sonra 1726-cı ildə Riyadın cənubundakı Hüreymilə qəsəbəsinə gəlmiş və burada qaldığı müddətdə ən mühüm əsəri olan «Kitabü-t-Tövhid»i yazmış və təlimini təbliğ etməyə başlamışdır. Onun digər mühüm əsərləri isə bunlardır: «İmanın əsaslarına dair» (Kitab üsul əl-iman), «Şübhələrin açıqlanması» (Kəşf əş-şübəhat), «Böyük günahlar haqqında kitab» (Kitab əl-kəbair) və s.[15] 1740-cı ildə atasının vəfatından sonra Hüreymilədə «Əmr bil-məruf və nəhy anil-münkər» (yaxşılığı əmr və pisliyi qadağan etmə) prinsipini elan edərək bu fikri Nəcd ərazisində yaymağa başlamışdır. Hüreymilədə fikirləri insanlar tərəfindən yaxşı qəbul edilmədiyi üçün anadan olduğu Üyeynəyə geri qayıdır. Üyeynəyə gəldiyi gündən oranın əmiri Osman bin Həmd bin Müəmmər ilə dostluq əlaqələri qurmuşdur. Onu öz fikirlərini müdafiə etməyə dəvət edən Əbdülvəhhab əgər ixlasla Allahın dininə

---

13 Fiğlalı R.E., Çağımızda itikadi islam mezhebleri, Ankara, Selcuk yayınları, 1996, s.96

14 Çubukçu A.İ., Mezhebler, Ahlak ve İslam Felsefesi ile ilgili Makaleler, Ankara, Ankara Üniversitesi basımevi,1984, s.65

15 Əliyev R.Y., İslam, Bakı, İrşad mərkəzi, 2000, s.346

kömək edərsə, Allahın onu Nəcd ərazisinin hakimi edəcəyini də demişdir. Üyeynədə qazılıq edən və fitvalar verməyə başlayan Məhəmməd bin Əbdülvəhhab qəti və sərt davranışları ilə ətrafında qorxu və narahatlıq yaratdı. Daha sonra əmir Osmana Dəriyə ilə Üyeynə arasında kiçik bir kənd olan əl-Cəbilədə yerləşən Zeyd bin əl-Xəttabın (v.12/634) qəbrini, Allah və rəsulunun əmirlərinə tərs olaraq türbə şəklinə salındığı və insanlar tərəfindən ziyarət edildiyi və türbələrin insanları dindən çıxmalarına səbəb olduğu üçün yıxmağı təklif edir. Bu təklifi qəbul edilərək oradakı türbə yıxılır, ətrafındakı ağaclar da kəsilir, yox edilir[16]. Bu hadisədən sonra Məhəmməd bin Əbdülvəhhab Üyeynənin ən mühüm insanlarından biri olur. Ancaq fikirlərini insanlara zorla qəbul etdirmək istəməsi, yerli xalqın qorxmasına səbəb olur və Nəcdin güclü qəbilələrindən biri olan Xalid oğullarının rəisi Süleyman bin Üreyirə müraciət edərək bu işə bir çarə tapmasını istəyirlər. O da Üyeynə əmirindən onu öldürməsini, yaxud da sürgünə göndərməsini tələb edir. Bu təzyiqlərdən sonra 1744-cü ildə ibn Əbdülvəhhab Riyad şəhərinin yaxınlığında yerləşən Dəriyyəyə gəlir və sonra bu yerlərin əmiri Məhəmməd ibn Səud ilə dil tapıb onun himayəsi altına keçir.

Dəriyyə Nəcdin Əriz bölgəsində kiçik bir vadidə yerləşirdi. O vaxt Dəriyyənin əmiri Məhəmməd ibn Səud güclü idi, şan şöhrət axtarırdı, qonşu əmirlikləri öz hakimiyyəti altında birləşdirmək istəyirdi və başa düşürdü ki, vəhhabilik bir təlim kimi ona öz məqsədinə çatmaqda kömək edə bilər. Məhəmməd bin Səudun başçılıq etdiyi dəstə səhrada yaşayanköməksiz və tənha ailələrə, habelə kiçik şəhərlərə və kəndlərə hücum edərək, var-dövlətlərini talayırdı. Bu işdə ona ingilis kəşfiyyatı da kömək edir, silahla təchiz edirdi. Əsas məqsəd isə İngiltərənin strateji düşməni olan Osmanlı imperiyasının tərkib hissəsi sayılan Ərəbistanda vəziyyəti gərginləşdirmək və ərəb torpaqlarının Osmanlı nəzarətindən çıxmasına nail olmaq idi[17].

Vaizlə əmir razılığa gəldilər və ittifaq bağladılar. İbn Abdulvəhhab bununla öz təlimini təbliğ etmək,özünə ardıcıl toplamaq, əmir Məhəmməd ibn Səud isə şan-şöhrətə və hakimiyyətə yetişmək, Ərəbistanı öz hakimiyyəti altında birləşdirmək imkanı qazandılar. Vaizin ardıcılları özlərini

---

16 Ecer V.A.,Tarihte Vehhabi hareketi ve etkileri, Ankara, Avrasiya stratejik araшdыrmalar merkezi yayınları, 2000, s.54

17 «Qütb» ( İctimai fikir curnalı), Bakı, 2000, Noyabr (4/12)

«müvəhhidlər» (tövhidə əməl edənlər,Allahın birliyini tanıyanlar) məzhəblərini isə «Məhəmmədiyyə» adlandırsalar da, əleydarları tərəfindən «vəhhabilər» kimi tanınmışlar[18].

Məhəmməd bin Əbdülvəhhab Dəriyyə əmiri Məhəmməd bin Səuda «Nəcdin hakimi olmağı» təklif edir və öz fikirlərini təbliğ etmək üçün ondan kömək istəyir. Əgər ona kömək edərsə, Nəcdə hakim olmağı vəd edir və 1744-cü ildə baş verən bu anlaşma ilə Əbdülvəhhab böyük bir qüvvət qazanmış olur. Bu anlaşmanın nəticəsində Məhəmməd bin Əbdülvəhhab dini liderliyi, Məhəmməd bin Səud da dövlət işlərində liderliyi paylaşaraq «fəth planları» qurmağa başladılar. Bu anlaşma ilə Vəhhabi dövlətinin əsası qoyulmuş olurdu.

Məhəmməd bin Əbdülvəhhab Dəriyyədə sadəcə dərs keçməklə kifayərlənməyib, məzhəbi müdafiə etmək üçün müxtəlif risalələr yazdı. Ərazidəki əmirlərə, Mədinə ziyalılarına, hətta III Səlimə fikirlərini qəbul etmələri üçün məktublar da yolladı[19].

İbn Əbdülvəhhab Dəriyyədə «Kitabü-t-Tövhid» adlı əsərindəki görüşləri yaymağa, insanları şirk və bidətlərdən qurtularaq dinə girməyə dəvətə başladı.O, təbliğ etdiyi görüşləri qəbul etməyənləri, yəni ona görə həqq dinə girməyənləri qılıncla yola gətirmək lazım olduğu fikrini irəli sürdü. İnsanların yolunu azdığını, qəbir və türbə ziyarətləri, təriqətlərə girmə və buna oxşar işlərin ucbatından tövhidin pozulduğunu irəli sürərək, qan və mallarının özünə inanan müvəhhidlərə halal olduğunu elan etdi[20]. Bütün bu tədbirlər bu cür işlərə uyğun olan Nəcd ərazisinin xalqına çox cəzb edici gəlmişdi. Necə ki, Nəcd ərazisinin əhalisi Peyğəmbər dövründə müsəlman olsalar da, əvvəllər Yəmən, İran, Hind, İraq və Şamın təsiri nəticəsində müxtəlif əqidələrə səhnə olmuşdu.

Hz. Peyğəmbərdən sonra Müseyləmətü-l-Kəzzab, Səcah, Tüleyha və Əsvədul Ənsi kimi yalançı peyğəmbərlər də yenə bu bölgədən çıxmışdır. Sonrakı dövrlərdə müxtəlif üsyançı qruplaşmalar burada görülmüşdür. Qısa

---

18 Sübhani U.C., Vəhhabi məzhəbi, Bakı, Əbilov, Zeynalov və oğulları, 1999, s.11

19 İslam Ansiklopedisi, İstanbul, Milli eğitim basımevi, 1988, XIII, s.263

20 Ahmed Cevdet P., Osmanlı Tarihi (Tarih-i Cevdet), İstanbul, Hikmet neşriyatı, IV, s.1855

olaraq üsyankar ruhlu və soyğunçuluğa meyilli idilər və aralarında cəhalət geniş yayılmışdı. İnsanların xarakterlərinə coğrafiyanın çox böyük təsiri vardır. Bu barədə tarixçi İbn Xəldun «Müqəddimə» adlı əsərində geniş məlumat verməkdədir. Həmçinin Peyğəmbərimiz də «Daş ürəklilik və sərt davranış Şərqdə, iman isə Hicaz əhlindədir»[21](16,c1,s293). Qazı İyaza görə, «Şərq» deyilərkən Nəcd bölgəsi nəzərdə tutulur, çünki Nəcd şərqdə Mədinədən başlayır. Hədis Təbükdə söylənsə də, onun şərqi də Nəcddir. Rabia və Mudar qəbilələri orada yaşayırdılar. Sərt təbiətli, daşürəkli insanlardır[22] (16,c.1,s.296). Heç şübhəsiz ki, bu bölgələrin bütün insanları haqqında eyni sözləri söyləmək mümkün deyil, ancaq ümumən xarakterlərinin qətilik və qəddarlıq olduğunu ifadə etmək olar.

Bu anlayışdakı xalqa İbn Əbdülvəhhabın qənimət vəd edən fikirləri çox cəzbedici gəlmişdi. Çünki, bir müddət əvvəl soyğunçuluqla əldə edilən qənimət bu dəfə İbn Əbdülvəhhabın ’’tövhid dinini yaymaq üçün cihad adına müqəddəslik qazanırdı və halallaşırdı. Beləliklə, bu yeni fikirləri qəbul etməyənlər qılıncdan keçirilir və malları, qənimət hüququna görə dövlətə ayrıldıqdan sonra qalanı döyüşənlər arasında bölünürdü’’[23].

XVIII əsrin 40-cı illərinin ortalarından etibarən İbn Əbdülvəhhab açıq-aşkar siyasi mübarizəyə qoşulur, onun təlimi Ali Səud sülaləsinin Ərəbistan yarımadasında hökmranlıq etmək uğrunda apardığı mübarizənin bayrağına çevrilir. Təqribən 20-25 il içərisində bir çox əmirliklər Ali Səuda tabe edilir, vəhhabilik geniş bir ərazidə əhali tərəfindən qəbul olunur. Vəhhabilər 1754-cü ildə Hüreymiləni, 1757-ci ildə Mənfuxə və Bureydəni, 1767-ci ildə Vəşm və Südeyri, 1784-cü ildə Yəmən və Silmiyyəni, 1787-ci ildə Dərasir vadisini, 1790-cı ildə köçəri müteyr və şəmmər qəbilələrini, 1796-cı ildə Məkkəni özlərinə tabe etdilər. İşğal edilmiş ərazilərin əhalisinə təlqin edilirdi ki, Allaha yalnız vəhhabilərin göstərdikləri şəkildə iman bəsləmək və ibadət etmək lazımdır. Peyğəmbərin sünnəsinə vəhhabi imamın dedikləri əsasında əməl edilməlidir, müsəlmana türbə və məqbərələri ziyarət etmək, müqəddəslərdən şəfaət diləmək yaraşmaz, odur ki, belə tikililər hər yerdə dağıdıl-

[21] Davutoğlu A., Sahihi Müslim (tercüme ve şerhi), İstanbul, Sönmez, I, s.293
[22] Davutoğlu A., a.g.e.I, s.296
[23] Fiğlalı R.E., Çağımızda itikadi islam mezhebleri, Ankara,Selcuk yayınları, 1996, s.98

malıdır, bu məzhəbin əsl islama uyğunluğuna inanmayanları izləmək, təqib etmək,hətta öldürmək də caizdir, kafirlərə qarşı cihad etmək və vəhhabilərə yardımçı olmaq hamının borcudur. Onlara görə imam Məhəmməd bin Əbdulvəhhab islama yenilik gətirmiş alimdir .

İbn Əbdulvəhhab təkcə ilahiyyat məsələləri ilə məşğul olmaqla kifayətlənmir, ordunun təchiz edilməsi, orduda nizam intizam yaradılması, mənəvi tərbiyə ilə bağlı işlərə də rəhbərlik edirdi. O, öz vəzlərində vəhhabiləri intizama tabe olmağa çağırır, onların döyüş əzmini, fədakarlıq və təəssübkeşliyini gücləndirirdi. Vəhhabi əsgərləri yüksək dözümlülük nümayiş etdirir, ən çətin şəraitdə günlərlə susuz, yeməksiz döyüş rəşadəti göstərirdilər[24].

Vəhhabilər işğal etdikləri ərazilərdə məktəblər açır, əhaliyə yazmağı və Quran oxumağı öyrədirdilər. Onlar şəhərlərdə oğurluğun aradan qaldırılması, yollarda təhlükəsizliyin təmin edilməsi sahəsində bir sıra işlər görmüşlər. Onu da qeyd etmək lazımdır ki, Şeyx Məhəmməd Dəriyyə şəhərinə gəlib Məhəmməd ibn Səudla ittifaq bağlayan zaman oranın camaatı aclıq və yoxsulluq içərisində əziyyət çəkirdi.

Alusi ibn Bişr Nəcdinin dilindən belə rəvayət edir:

«Mən Dəriyyə əhalisinin ağır güzəran keçirməsinin şahidi olmuşam. Sonralar bu şəhər Səudun vaxtında çox dəyişdi. Camaat çoxlu mal-dövlətə, bəzəkli əşyalara, cins atlara və bahalı paltarlara sahib olmuşdu. Bunu sözlə ifadə etməyə dilin qüdrəti çatmaz…».

Əlbəttə İbn Bişr bu qədər mal dövlətin və sərvətin necə əldə olunduğunu şərh etməyib. Amma tarixdən belə məlum olur ki, bu mal-dövlət Şeyx Məhəmmədin əqidəsinə tabe olmayan müsəlman qəbilələrinə və Nəcd şəhərlərinə hücüm zamanı qarət nəticəsində əldə olunmuşdur. O, qazanılan qəniməti istədiyi kimi bölürdü. Bəzi vaxtlar bunların hamısını özünə götürər və yaxud 2-3 nəfər arasında bölərdi. Qənimətlərin hamısına şeyx nəzarət edirdi. Nəcd şəhərinin əmiri də onun icazəsi ilə mal-dövlət götürərdi.

Vəhhabilər Nəcd daxilində və xaricində (Yəmən-Hicaz-Suriya-İraq) apardıqları döyüşlərdə də eynilə bu hərəkəti davam etdirirdilər.Ələ keçirdikləri şəhərin mal- dövlətini özlərinə halal edib, əhalini qarət edirdilər .

---

[24] Sübhani U.C.,Vəhhabi məzhəbi, Bakı, Əbilov, Zeynalov və oğulları, 1999, s. 12-13

İbn Əbdulvəhhabın h.1206/ m.1792-ci ildə vəfatından sonra bu hərakatın Məhəmməd İbn Səud tərəfindən başladılmış siyasi yönü daha da güclənir. İbn Səudun zamanında başlayan torpaq əldə etmə fəaliyyətləri, onun ölümündən sonra (1179/1766) oğlu Əbdüləziz zamanında da davam etdirildi. Osmanlı dövlətinin mərkəzindən uzaq olmalarından da istifadə edərək çox sürətlə müxtəlif əraziləri ələ keçirməyə başladılar. Osmanlı dövlətinin Rus və İran müharibələri ilə məşğul olması və zəif düşməsindən istifadə edən vəhhabilər Bəsrə körfəzi ətrafında dövlətlərini qurdular. Daha sonra Nəcəfdə şiələrlə baş verən bir mübahisə nəticəsində bəzi vəhhabilərin öldürülməsini bəhanə edərək Əbdüləziz bin Səudun başçılığı altında 10 Məhərrəm 1802-ci ildə Kərbəlanı ziyarət edən minlərlə insan qılıncdan keçirilir və Hz. Hüseynin məqbərəsi qarət edilir. Daha sonra gözünü Taif, Məkkə və Mədinəyə dikən İbn Səud, 1802-1806-cı illər arasında buraları ələ keçirir və xalqına ''sizin dininiz bu gün kamala çatdı, İslamın nemətləriylə şərəflənib Cənabı Allahı razı etdiniz. Bundan sonra ata və babalarınızın batil inanclarına meyl və rəğbətdən, onları xeyir və rəhmətlə yad və zikr etməkdən qorxun və uzaq olmaya çalışın. Əcdadlarınız tamamən şirk üzrə vəfat etdilər. Hz Peyğəmbərin qəbrinin qabağında əvvəllər olduğu kimi dayanaraq təzim üçün peyğəmbərə dua oxumaq və salam vermək məzhəbimizə görə qadağandır. Buna görə də Peyğəmbərin qəbrinin önündən keçənlər heç bir şey oxumayaraq keçib getməli və təkcə (əs-Səlamu əla Məhəmməd) deyə salam verməlidir[25] deyərək xalqa qarşı çox cürətkar bir şəkildə xitab edir.

Artıq vəhhabi dövləti 1811-ci ildə cənubda Hələbdən Hind okeanına, Bəsrə körfəzi və İraq sərhəddindən Şərqdə Qırmızı dənizə qədər yayılmışdı.

Vəhhabiliyin artıq mühüm bir məsələ olduğunu hiss edən Osmanlı dövləti və onun hökmdarı II Mahmud (1808-1839) işin həllini Misir valisi Məhəmməd Əli paşaya həvalə edir. Paşa oğlu Tosunun tabeliyindəki bir ordu ilə 1812-13-cü illərdə Mədinə, Məkkə və Taifi vəhhabilərin əlindən qurtarır. Daha sonra Paşa özü Əbdüləziz bin Səuda hücum edir. İbn Səud paşaya qarşı müqavimət göstərsə də, 1814-cü ildə ani ölümündən sonra onun yerinə oğlu Abdullah keçir. Kavalalının əmiri altında olan İbrahim paşa 1818-ci ildə Abdullanı və uşaqlarını əsir edib İstanbula göndərir. Abdullah

---

[25] Eyüb S.P., Tarih-i Vehhabiyan, İstanbul, Bedir yayınevi, 1992, s.34-55

bin Səud və dörd oğlunu 1819-cu il dekabr ayının 17-də Şeyxulislam Məkkizadə Mustafa əfəndinin verdiyi fitva əsasında asırlar. Beləliklə, vəhhabiliyin birinci dövrü bağlanmış olur[26].

Edam olunan Abdullanın qardaşı Məşşəri 1818-ci ildə Dəriyyəni ələ keçirsə də, 1819-cu ildə Məhəmməd Əli paşa buranı geri aldı. Ancaq Misir ordusunun geri çəkilməsindən sonra Abdullanın oğlu Terki paytaxt elan etdiyi Riyada (1812) yerləşərək 1820-1831-ci illər arasında II Vəhhabi dövləti adı altında tanınacaq və 1891-ci ilə qədər davam edəcək bir dövlətin qurucusu olmuşdur. 1830-cu ildə Terki Ahsanı ələ keçirdi. Bundan bir müddət sonra isə Bəhreyni işğal etdi. Tərki 1834-cü ildə öldürüldü[27].

1888-ci ildən sonra vəhhabi şeyxləri və Məkkə şərifləri Osmanlı hakimiyyətindən ayrılmaq üçün ingilis, fransız və italyanlarla müqavilə bağlamağa başladılar.

Osmanlı dövləti Əbdüləziz bin Əbdürrəhman b. Faysal b. Terkinin 1902-ci ildən etibarən bir çox yerlərə hakim olduğunu görüncə onun tamamilə müstəqil olmasının qarşısını almaq üçün Faysal bin Terkiyə «Nəcid valisi və komandanı» adını vermək məcburiyyətində qaldı .

Məkkə şərifi Hüseynin ingilislərin təsiri ilə türklərin əleyhinə mübarizə apardığı bir vaxtda Əbdüləziz bin Səud 1916-cı il müqaviləsi ilə Nəcd, Ahsa,Katif və Cubeylin hökmdarı olaraq tanındı.

Mondros müqaviləsinə əsasən (1918) Osmanlı dövləti Hicaz ərazisindən geri çəkildi. Bir müddət sonra vəhhabilər Məkkə və Taifi ələ keçirdilər(1924). Özünü Hicaz kralı elan edən Əbdüləziz b. Əbdürrəhman b. Faysal b. Terki 1926-cı ildə bir vaxtlar, yəni 1912-ci ildə ”İxvan” adıyla qurmuş olduğu təşkilatı vasitəsilə vəhhabiliyin canlandırılması və siyasi cəhətdən qüvvətləndirilməsi fəaliyyətini artırdı. 1927-ci il may ayının 20-də Əbdüləziz bin Əbdürrəhman bin Səudun ingilislərlə bağladığı Ciddə müqaviləsi nəticəsində o tamamilə müstəqil oldu və daha əvvəlki müqavilələrin ağır şərtlərindən canını qurtardı. Özünü İslam xəlifəsi elan etmək istəyən Məkkə şərifi Hüseyni 1930-cu illərdə hakimiyyətdən uzaqlaşdıran Əbdüləziz 18 sentyabr 1932- ci ildə Hicaz və

---

26 Fiğlalı R. E.,Çağımızda itikadi islam mezhebleri, Ankara,Selcuk yayınları, 1996, s. 99

27 İslam Ansiklopedisi, İstanbul, Milli eğitim basımevi, 1988, XIII, s.267

Nəcd məliki adını alaraq bu günkü Səudiyyə Ərəbistanı dövlətinin başına keçdi. 1924-cü il Mart ayının 3-də Türkiyə Millət Məclisi tərəfindən xilafət ləğv edilmiş, son xəlifə Əbdülməcid xaricə getmişdir. Əbdüləziz bin Səud 1926-cı il iyun ayının 26 da Məkkədə islam ölkələri arasında xilafət konqresi təşkil etməsinə baxmayaraq bu sahədə uğur qazana bilmədi[28]. 1934-cü ildə qısa müddət davam edən müharibədən sonra Əbdüləziz Yəmən imamı Yəhyanı məğlub edir. Bu müharibədən sonra Nəcran da Səudiyyə Ərəbistanı torpaqlarına birləşdirildi[29].

**İbadət və itaətdə tövhid**

Tövhid Allahı mütləq mənada zatı, sifətləri, davranışları ilə bir qəbul etməkdir. Əməli yöndən bütün ibadətlər Allaha edilməlidir"[30].

Bütün dövrlərdə səmavi peyğəmbərlərin dəvəti bir olan Allaha ibadət etmək olmuşdur. Yəni bütün insanlar Allaha ibadət etməli, başqa varlıqlara və məxluqlara ibadət etməkdən çəkinməlidirilər. Bir olan Allaha ibadət etmək, ikiliyə ibadət etməyin zəncirini qırmaq səmavi göstərişlərin əsasını təşkil etmiş və bütün ilahi peyğəmbərlərin başlıca məqsədi olmuşdur. Peyğəmbərlər sırf şirklə, xüsusən də ibadətdə olan şirklə mübarizə aparmışlar. Quran bu həqiqəti açıq-aşkar xatırladır:

«Biz hər ümmətə-Allaha ibadət edin, tağutdan çəkinin! Deyə peyğəmbər göndərmişik» (Nəhl, 36). (Ya Məhəmməd) «Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız mənə ibadət edin-deyə vəhy etməyək» (əl-Ənbiya, 25).

Vəhhabilərin fikirlərinin əsasını tövhid təşkil edir. Bu inancı təsis edən Məhəmməd bin Əbdölvəhhabın anlayışına görə tövhid imanda və əməldə olmaqla iki yönlüdür. Şirk, bidət, şəfaət və başqa bunun kimi fikirlərin hamısı tovhidə əsaslanmaqdadır. Əhl-i sünnə alimlərinin böyük əksəriyyətinə görə "tövhid" Allahın varlığı, sifətləri və işləri cəhətindən birlənməsi: Onun hər mövzuda ortağı, oxşarı və şərikinin olmadığını deməkdir. Məhəmməd bin Əbdülvəhhab "Kəşfüş-şübuhat" adlı əsərində

---

[28] Doguşdan günümüze büyük İslam tarihi, Konya, Esra yayınları, 1994,XIII, s.402

[29] Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, İstanbul, 1991, III, s.258

[30] Özler M., İslam düşüncesinde tevhid, İstanbul, Nun yayıncılık, 1995, s.55

tövhidi belə izah edir: “Tövhid, ibadətdə Allahı bir qəbul etməkdir”[31]. Hz. Peyğəmbərin bildirdiyi ən mühim fərz şübhəsiz ki, tövhiddir. Bu fərz namazdan, orucdan, zəkatdan və həcdən daha mühimdir. Peyğəmbərin bildirdiyi fərzlərdən birini inkar edən kafir olduğu kimi bütün peyğəmbərlərin yolu olan tövhidi inkar edən də kafirdi. Quran bu barədə belə buyurmaqdadır. «Həqiqətən Allah özünə şərik qoşulmasını bağışlamaz. Lakin o istədiyi kəsə bundan başqa (günahları) bağışlayar. Allaha şərik qoşan çox böyük günah işləmiş olur» (Nisa,48). «Üzünü haqq dinə tərəf çevir və müşriklərdən olma. Allahı qoyub, sənə nə xeyri, nə də ziyanı olanı çağırma. Əgər sən (bunu) etsən, onda həqiqətən zalımlardan olarsan. Əgər Allah sənə bir zərər toxundursa, ondan başqa heç kəs (səni) bundan qurtara bilməz. Əgər O, sənə bir yaxşılıq etmək istərsə, Onun lütfünün qarşısını alan olmaz. Bunu O, öz bəndələrindən istədiyi kəsə edər. O, bağışlayandır, rəhmlidir» (Yunus,105-107). Bundan başqa Peyğəmbərimiz bir hədisində buyurur ki, «Hər kim La ilahə illalah deyər və Allahdan başqa ibadət olunacaq bütün şeyləri inkar edərsə, malı və qanı qorunmuş olar. Onun hesabı Allaha aiddir»[32].

Yuxarıda saydığımız ayə və hədislər, tövhidin Allahın birliyini tanımaq, inanmaq və dil ilə söyləmək olduğunu göstərməkdədir.

Lakin Məhəmməd bin Əbdülvəhhab “La ilahə illalah” sözünün söylənilməsini insanın malının və qanının qorunması üçün yetərli səbəb saymır. Onun fikirlərinə görə, bu sözün mənası bilinməli, dil ilə söylənməli və ibadət edərkən də Allah ibadətdə tək qəbul edilməlidir. Yəni, tövhid qəlb, dil və əməllə olmalıdır. Bunlardan biri əksik olarsa, insan müsəlman sayılmaz. Özlərini sələfi adlandırmalarına baxmayaraq vəhhabilər iman mövzusunda da sələfi alimlərinin bir çoxunun görüşlərindən uzaqlaşmışlar. Sələfi alimləri, hədisçilər və bəzi məzhəb imamları əməli imanın kamil olması üçцn şərt saymışlar. Əhli sünnə alimlərinin əksəriyyəti imanı Allahın birliyini qəbul, Həzrəti Məhəmmədin peyğəmbərliyini təsdiq etməkdən ibarət saymışdır[33].

---

31 محمد بن عبد الوهاب، كشف الشبوهات، المكة، المطبعة النحضة الحاد ثة ، ١٩٨٦. s 3

32 عبد الرحمن بن حسن ، فتح المجيد، (تحقيق: عبد العزيز بن عبد الله) القاهرة، دارالحديث، ١٩٩٢، s 111

33 Aydın Arslan A., İslam inancları Tevhid ve ilmi kelam, Ankara, Gonca yayınevi, 1984, s.167

Burada onu da qeyd etmək lazımdır ki, tövhid məsələsində vəhhabilərin digər məzhəblərdən ayrıldığı mövzu «ibadəti» imandan, tövhiddən bir hissə saymalarıdır. İbadətdə tövhid əsl və möhkəm sütunlardan biridir və heç bir müsəlman bunun ziddinə çıxmayıb Bu məsələdə bütün etiqadi məzhəblərin fikirləri birdir. Mötəzilə məzhəbinin «feldə tövhid»i, əşərilərin isə «sifətdə tövhid»i qəbul etməmələrinə baxmayaraq, bunlar hamısı ibadətdə tövhidi qəbul edirlər. Heç bir müsəlman bunu inkar edə bilməz. Yuxarıda qeyd etdiyimiz kimi əgər bu məsələdə müsəlmanlar arasında ixtilaf varsa, bunlar hamısı ibadətin növlərinə aiddir. Yəni hər hansı bir əməlin ibadət olub olmamasında ixtilaf vardır. Şübhəsiz ki, Allahdan başqasına ibadət etmək haram və şirkdir [34].

İbadət, onun leksik və Quranda işlənən mənalarına nəzər saldıqdan sonra Məhəmməd bin Əbdülvəhhabın tövhid haqqında fikirlərinə qayıdacağıq. İbadətdə tövhid xüsusi bir məzhəbə aid ediləsi əməl deyildir. Əksinə bütün müsəlmanların nəzərində bir əməl sayılır. Lakin bəzi əməlləri bir qrup ibadət adlandırır, başqa müsəlmanların nəzərində isə bu əməllər ibadət sayılmır. Buna görə də ibadətə məntiqi cəhətdən tərif verərək əhatə dairəsini müəyyənləşdirək.

«İbadət» ərəb sözü olub sitayiş etmək deməkdir. İbadətin mənasına məntiqi cəhətdən tərif vermək mümkün olmasa da, sitayiş sözünün mənası bizim hamımıza aydındır. Biz yer və göyün nə olduğunu başa düşsək də ona tərif verə bilmirik. Ancaq onların adları çəkilən zaman ani olaraq yer və göy gözlərimiz önündə canlanır. İbadət və sitayiş sözləri də yer və asiman kəlmələrinə oxşayır, yəni onlara məntiqi cəhətdən tərif verə bilməsək də mənalarını dərk edə bilirik. Dünyanın böyük rəhbərlərinin mumiyalanmış cəsədlərinin ziyarətinə gəlib, cəsədlərin qarşısında bir neçə dəqiqə sükut edərək onları yad etmək ibadət sayılmır. İbadət sözünün leksik mənasının düzgün başa düşülməməsi də məzhəblər arasındakı mübahisəni qızışdırmışdır.

Cəfər Sübhanin ibadət və onun mənaları haqqında yazılarına nəzər salaq: «Lüğət kitablarında «ibadət» sözü özünü kiçiltmək və təvazökarlıq mənasında təfsir olunub. Lüğət alimlərinin bu təfsiri «ibadət» kəliməsi-

---

[34] Sübhani U.C., Vəhhabi məzhəbi, Bakı, Əbilov, Zeynalov və oğulları, 1999, s. 125

nin səhih və doğru mənasını izah edə bilməz. Çünki, əgər ibadət kəliməsi özünü kiçiltmək və təvazökarlıq mənasında olsa, heç kimi muvəhhid (təkallahlı) adlandırmaq olmaz. İnsan fitrətən maddi və mənəvi cəhətdən məqamları yüksək olanların qarşısında təvazökarlıq edir. Məsələn, tələbənin müəllimə, övladın ata-anaya və s. kimi[35]. Bundan başqa Quran valideyn qarşısında təvazökarlıq etmək üçün övladlara belə göstəriş verir:

«Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb, «Ey rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, sən də onlara rəhm et!»-de» (İsra, 24). Əgər təvazökarlıq ibadət sayılırsa, onda gərək valideyninə itaət edən təvazökar övladlar müşrik, valideyn üzünə ağ olanlar isə «təkallahlı» kimi tanınsınlar.

Bütün müsəlmanlar təkallahlıların rəhbəri olan əziz İslam Peyğəmbərinin ardıcılları olaraq «Həcərül-əsvədi» (kəbə evinin bir kənarında behiştdən göndərilmiş qara daş) öpürlər və bu daşa əl sürtürlər, yəni bütpərəstlərin əməlinə oxşar bir iş görürlər. Bununla, belə bütpərəstlərin gördüyü iş şirk, müsəlmanların gördüyü iş isə həqiqi tövhid sayılır. İbadəti yalnız təvazökarlıq adlandırımaq olmaz. Əksinə təvazökarlıq ibadətin bir ünsürüdür və bu, ibadətin əsasını təşkil etmir. Təvazökarlıq və özünü kiçiltmək əqidə ilə birlikdə olmalıdır. Belə olan halda bu əqidə sayılır. Əgər xüsusi bir əqidə olmadan təvazökarlıq olmasa, ibadət sayılmır.

Məhəmməd bin Əbdülvəhhab tövhid məsələsində cahiliyyə dövrü ərəblərinin davranışlarını misal göstərir. «Allahın elçisinin müharibə etdiyi müşiklər də Allahın birliyinə inanırdılar. O, bu müşriklərdən bəzilərinin gecə-gündüz Allaha dua etdiklərini və bəzilərinin Allaha yaxınlıq və şəfaət niyəti ilə mələklərə, Lat kimi sonradan bütləşdirilmiş yaxşı insanlara və yaxud Hz.İsa kimi peyğəmbərlərə dua edib onlardan bir şeylər istədiklərini» söyləyir[36]. İbn Əbdülvəhhabın fikirlərinə görə, bu günkü insanların şirki cahiliyyə dövrü ərəblərin şirkindən daha şiddətlidir. Bu mövzuda o deyir ki: «İlk müşriklər, yalnız boş olduqları zaman şirk qoşar, övliyalara, mələklərə, bütlərə dua edərdilər. Çətinliyə düşdük-

[35] Sübhani U.C., Vəhhabi məzhəbi, Bakı, Əbilov, Zeynalov və oğulları, 1999, s.126

[36] محمد بن عبد الوهاب، كشف الشبوهات، المكة، المطبعة النحضة الحاد ثة ، ١٩٨٦ s. 43

də isə ixlasla Allaha dönərdilər. İstəklərini ondan istəyirdilər. Allah Quranı Kərimdə buyurur:

«Əgər dənizdə sizə bir bəla toxunarsa, Allah istisna olmaqla bütün ibadət etdikləriniz (bütlər) yox olub gedərlər (köməyə gəlməzlər). Sonra isə O, sizi xilas edib quruya çıxararsa, siz üz döndərərsiniz. Həqiqətən də insan naşükürdür» (İsra,67).

«De: «Sizə Allahın əzabı gələrsə və ya qiyamət günü yetişərsə, əgər düz danışansızsa, deyin görüm başqasınımı köməyə çağıracaqsınız? Xeyr, yalnız Onu çağıracaqsınız. Əgər O istəsə, barəsində Ona yalvardığınız (bəlanı) aradan götürər və siz (ona) qoşduğunuz şərikləri unudarsınız» (Ənam, 40-41). İbn Əbdülvəhhab davam edərək bildirir: «Allahın Quranı Kərimdə izah etdiyi bu məsələni, yəni Peyğəmbərin muharibə elan etdiyi müşriklərin boş vaxtlarından Allahdan başqasına ibadət etdiklərini, şiddət və çətin anlarında isə öz bütlərini yaddan çıxararaq yalnız Allaha döndüklərini və ona şirk qoşmadıqlarını başa düşən bir insan, zamanımızdakı şirklə müşrik ərəblərin şirki arasındakı fərqi də başa düşməlidir. İlk zaman müşrikləri Allahla bərabər Allaha itaət edən, Onun əmrinə boyun əyən peyğəmbərlərə, övliyaya, mələklərə ya da daşlara və ağaclara iltica edərdilər. Bunların heç biri Allaha qarşı gəlməzdi. Dövrümüzün insanları isə Allahla bərabər fasiqlərin ən şiddətlilərinə iltica edirlər, onları ucaldırlar. Bunlar, həddi aşanlar, zina edənlər, oğurluq edənlər, namaz qılmayan və bunun kimi insanlardır. Saleh insana ya da daş və ağac kimi Allaha qarşı gəlməyənə iltica etmək, fasiqliyi açıqdan görülən insana iltica etməkdən daha yaxşıdır"[37].

İman söz və əməldir, artar ya da əksilər. Dil ilə söyləyib, qəlb (ürək) ilə təsdiq etmək kifayət deyildir. O dil ilə söyləmək, ürəklə təsdiq, rükünləri ilə əməl etməklə tamamlanır. İbn Əbdülvəhhaba görə, Allahın əmrləri və Peyğəmbərin sünnəsi xaricindəki hər şey bidətdir. İmanla küfrü ayırd etmək demək olan əməli tövhidi yerinə yetirməyən kafirdir. Bu insanların malları və canları müvəhhidlərə (vəhhabilərə) halaldır. 500 (1107)-ci ilindən sonra ölən insanlar o biri dünyaya kafir olaraq getmi-

[37] محمد بن عبد الوهاب، كشف الشبوهات،المكة، المطبعة النحضة الحاد ثة١٩٨٦، s. 27-29

şər. Vəhhabiliyə inanan insanları bunların ölülərinin yanında basdırmaq caiz deyildir[38].

İbn Əbdülvəhhaba görə, tövhid 3 yerə ayrılır: Birincisi, Allahı adları və sifətlərində bir olaraq qəbul etməkdir. İkincisi, Rübubiyyət tövhididir ki, bu Allahın hər bir şeyin Rəbbi olduğunu bilmək və bunu dil ilə söyləməkdən ibarətdir. Üçüncüsü isə Uluhiyyət tövhididir. Bu da qulların əməlləri ilə Allahı bir qəbul etmələrindən ibarətdir. Bu növ tövhid Allahdan başqasına dua etməyi, başqasından kömək gözləməyi qadağan edir[39]. Allahdan başqasından kömək istəyən, Allahdan başqası üçün qurban kəsən və nəzr edən insan kafirdir. Buna görə Allahın əmirləri və Peyğəmbərinin sünnəsi xaricində əmr və qadağan qəbul etməyərək Peyğəmbər əleyhissəlam dövründə olmayan hər şeyi (bidət) saymaq və təvəssülü tərk edərək Allahı bir qəbul etməyə tövhidi əməli deyilir. İman ilə küfrü bir-birindən ayıran əməli tövhiddir. Bu tövhidi yerinə yetirməyən, yəni Allaha ortaq qoşan, ibadəti yalnız Allaha məxsus etməyən, köməyi Allahdan istəməyən, onun haramlarından uzaqlaşmayan insan kafir, bu insanların malları və canları isə halaldır. «Həqiqi müvəhhiddlərin, bu müşriklərə hücum edip onların mallarını yağma, qanlarını tökmələri halaldır»[40]. Beləliklə, İbn Əbdülvəhhab bu məsələdəki sərt və qəti davranışı ilə xaricilərə oxşamaqdadır. Bildyimiz kimi xaricilər də vəhhabilər kimi əməli imandan bir hissə sayaraq namaz, oruc, həcc və başqa əmrləri yerinə yetirməyəni kafir olaraq qəbul etmişlər. Vəhhabilər əməlin imanın bir hissəsi olduğu mövzusunda İbn Teymiyyəyə tabe olurlar və onlara görə fərz olan əməlləri tənbəllik və ya inkar məqsədilə tərk edən insan kafirdir, mal və qanları halaldır [41].

İndi isə İslam alimlərinin tövhid haqqında düşüncələrini araşdıraq. Mötəzilə tövhidi Allahın zatı ilə sifətlərinin eyni olduğu şəklində qəbul edir. İbn Hənbəl isə «əməl imana daxildir» deyir, amma məsələni tövhid məsələsi deyil, iman məsələsi olaraq ələ alır. Əbu Hənifə «Allah birdir,

---

[38] İslam Ansiklopedisi (İslam alemi, tarih, coğrafiya, etnografiya ve biyografiya luğati, 138. cüz), İstanbul, Milli eğitim basımevi, 1982. s. 264

[39] Mutlu İ., Mezhepler nasıl ortaya çıktı?, İstanbul, Mutlu yayıncılık,1997, s.336

[40] Yörükan Y.Z., ”Vehhabilik”, İFD, Ankara, 1953, N 1, s.65

[41] Mutlu İ., Mezhepler nasıl ortaya çıktı?, İstanbul, Mutlu yayıncılık,1997, s.337

bu birlik say cəhətdən deyil, ortağı olmamasına görədir» deyir. Tövhidin həqiqi mənasının kəlimeyi-şəhadət və vahdaniyyət əqidəsi olduğunda islam alimləri arasında fikir birliyi vardır. Yəni, tövhidi əməli tövhid olaraq izah etmək ümumi inancın tərsinədir.

Nizam intizamla, zərgər dəqiqliyi ilə yaradılmış dünyada olan hər bir varlıq, mövcudluq bir-birinə sıx bağlıdır. Bu nizamı yaradan Allahdır. Quran bəzi yerlərdə Allahın əmri ilə icra olunan əməllərin, hərəkətlərin səbəblərini də xatırladır: «Dirildən də, öldürən də O dur. Gecə və gündüzün bir-birinin ardınca gedib gəlməsi də Onun əmrləridir. Məgər dərk etmirsiniz?» (əl-Muminun, 80).

Lakin, Quran başqa bir ayədə mələkləri öldürən və dirildən tanıdır:

«Allah öz bəndələri üzərində hakimi-mütləqdir. O sizə (yaxşı və pis əməllərinizi yazan, sizi şeytandan qoruyan) gözətçi mələklər göndərir. Nəhayət, birinizin əcəli gəlib çatdıqda onun canını (göndərdiyimiz) mələklər alar...» (əl-Ənam,61).

Təbiətdə maddi və qeyri maddi sayılan məxluqların gördükləri işlər hamısı uca olan Allahın razılığı ilə baş verir. Yəni mələklər Allahın əmri və göstərişi ilə işləri icra edirlər. Əgər bir nəfər bütün bu işləri Allahdan başqa birisinə, məsələn, mələyə, övliyaya aid etsə və bunlara əqidə bağlamaqla onun qarşısında sitayiş etsə, bu ibadət sayılır. Başqa sözlə desək, bu işləri məxluqlar özbaşına müstəqil icra edərlərsə, onda Allaha şərik sayılırlar. Belə bir əqidə də şübhəsiz ki, şirkdir. Quran bu haqda buyurur:

«İnsanların içərisində Allahdan qeyrilərini ona şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır» (Bəqərə, 165). Heç bir məxluq, yaradılmış olan varlıq, Allahın misli və şəriki ola bilməz. Əgər bir məxluq Allahın göstərişi və izni ilə iş görürsə, deməli, ona itaət etmiş sayılır.

Peyğəmbər dövründə olan müşriklər bütlərin bir çox işlərdə azad və müstəqil olduğuna əqidə bağlayırdılar.

Cahiliyyə zamanı insanlar müşrik əqidələri ilə bütün işlərin rahiblərin iradəsilə həyata keçdiyini güman edirdilər:

«Onlar Allahı qoyub alim və rahiblərini, Məryəm oğlu İsanı özlərinə tanrılar qəbul etdilər» (ət-Tövbə,31). Müşriklər Allaha məxsus olan şəfaət və bağışlamağı bütlərə məxsus xüsusiyyət bilirdilər. Amma ayələrdə deyildiyi kimi, Allahın izni olmadan heç kim şəfaət edə bilməz: «Allahın

izni olmadan onun yanında kim şəfaət edə bilər?» (əl-Bəqərə, 255). Əgər onların məbudlarının Allahın izni ilə şəfaət etməyə əqidələri olsaydı, onda Quranda, Allahın izni olmadan şəfaət etməyin qadağan olunmasına heç bir ehtiyac olmazdı.

Əgər insanlar Allahın əziz və yaxın bəndələrinə sağlığında və vəfatından sonra rəbb və ilah əqidəsi olmadan ehtiram və hörmət edirsə, heç bir məzhəb bu əməli ibadət, ona inananı da müşrik hesab edə bilməz. Bildiyimiz kimi, Peyğəmbərimizin hədislərinə əməl edərək həcc mərasimində həcərül-əsvədə əl sürtür, bu daşı öpür, Allah evinin ətrafına dövrə (təvaf) vurur, Səfa və Mərvə (Məkkədə olan iki dağın adıdır. Onların arasındakı məsafə 420 metrdir. Həcc ziyarəti üçün vacib ayinlərdən biri də bu iki dağ arasında yeddi dəfə gediş-gəliş etməkdir[42]) dağları arasında qaçırıq, yəni bütpərəstlərin bütlərə qarşı etdiyi əməllərə oxşar bir iş görürük. Bəs nə üçün indiyə kimi «daşa, torpağa ibadət edirik» sualını özümüzə verməmişik. Çünki, biz daş-torpaqda zərrə qədər xeyir və zərərin olmadığını bilirik. Əgər biz bu daş-torpağı rəbb, ilah adlandırıb, əqidə üzündən bu işləri görsəydik, onlardan bir xeyir və ziyan gözləsəydik, bütpərəst olardıq. Buna görə də, peyğəmbərin, imamın, müəllimin, ata-ananın əlini öpmək və yaxud Qurana, dini kitablara, məqbərələrə və Allah övliyalarına aid olan tarixi abidələrə ehtiram göstərməyin heç bir zərəri yoxdur... Mələklərin Adəmə səcdə etmələri və Yusifin qardaşlarının Yusifə səcdə etmələri Quranda zikr olunub, Mələklərin və Yusifin qardaşlarının bu əməllərini Adəmə və Yusifə ibadət saymaq kimsənin gəlməyib. Çünki, səcdə edənlər ilah və rəbb niyyəti ilə səcdə etmirdilər. Buna görə də onların etdikləri təzim ibadətə görə yox, əksinə, hörmət və ehtirama görə idi.

Bütün əməllər, hətta Yusifin qardaşlarının təzim etməsi də Allahın əmri ilə baş verib. Bu əməlin mahiyyəti ibadət və sitayiş sayılmadığına görə Allah bu işi yerinə yetirməyə göstəriş vermişdir. Əgər bu işin mahiyyəti ibadət olsaydı Allah heç vaxt belə bir göstəriş verməzdi[43].

---

[42] Bəlaği S., Quran qissələri, (Fars dilindən tərcümə edən: Nağısoylu. M), Bakı, Azərbaycan bədii tərcümə və ədəbi əlaqələr mərkəzi, 1992, s.314

[43] Sübhani U.C., Vəhhabi məzhəbi, Bakı, Əbilov, Zeynalov və oğulları, 1999, s.136

«(Ya Peyğəmbərim) De: Allah ədəbsizliyi (yaramaz işləri) əmr etməz. Allaha qarşı bilmədiyiniz şeyimi deyirsiniz?» (əl-Əraf,28).

Məhəmməd bin Əbdülvəhhabın tövhidi izah edərkən əsaslandığı, ayə və hədislərə baxaq:

Allahın kəlamlarından «iman gətirib imanlarına haqsızlıqla kölgə salmayanlar əmin-amanlıqda olarlar onlar doğru yoldadırlar» (əl-Ənam,82).

Übadə ibn Samitin belə dediyi rəvayət olunur: «Rəsulullah demişdir: Kim şəhadət versə ki, tək Allahdan başqa ilahi yoxdur, Onun heç bir şəriki yoxdur, Məhəmməd onun qulu və rəsuludur, İsa Allahın qulu və rəsulu, onun Məryəmə dediyi (təlqin etdiyi) sözü və Ondan gəlmə bir ruhdur, cənnət haqdır, cəhənnəm haqdır, Allah o adamı əməlindən asılı olmayaraq, cənnətə daxil edər». Yenə də onların İtbandan rəvayət etdikləri hədisdə belə deyilir: «Allah, «la ilahə illəllah» deyib Ona üz tutan hər bir adamı cəhənnəm odundan qoruyar»[44].

Əbu Səid əl-Xudri (Allah ondan razı olsun) Allahın rəsulunun belə dediyini rəvayət edib: «Musa dedi: «Ey Rəbbim! Mənə elə bir şey öyrət ki, Səni onunla yada salım və sənə onunla dua edim» Allah buna cavab olaraq buyurub: «Ya Musa, de ki, la ilahə illəllah». Musa cavab verir: «Sənin bütün qulların belə deyirlər». Allah belə buyurur: «Ya Musa, əgər yeddi qat səma, yeddi qat yer və məndən başqa orada olanlar tərəzinin bir gözünə, «la ilahə illəllah» kəlməsi tərəzinin o biri gözünə qoyulsa, «la ilahə illəllah» (Allahdan başqa ilah yoxdur) olan göz ağır gələr[45] . Hakim həm də bu hədisi səhih hədis adlandımışdır.

Allah Təala Qurani Kərimdə buyurur: Xəlil (Allahın sevimlisi, dostu, yəni İbrahim peyğəmbər) demişdir: «... məni və övladlarımı bütlərə sitayiş etməkdən uzaq et» (İbrahim 35).

Hədisdə isə Peyğəmbər əleyhissəlam belə deyir: «Mən ən çox sizin kiçik şirkə yol verməyinizdən qorxuram. Ondan soruşular ki, kiçik şirk nədir? O deyir: «Riya»[46].

---

[44] Canan İ., Hadis Ansiklopedisi (kutubu sitte), İstanbul, Akçağ, I, s.27

[45] Məhəmməd ibn Süleyman ət-Təmimi əl-Həmbəli, Tövhid kitabı, (ərəb dilindən tərcümə edən: Əmirəhmədov. Ə.), Bakı, Azərbaycan dövlət kitab palatası,1996, s.10

[46] Məhəmməd ibn Süleyman ət-Təmimi əl-Həmbəli, a.g.e.,s.14

İbn Məsudun (Allah ondan razı olsun) rəvayətinə görə Rəsulullah əleyhissəlam demişdir: «Kim başqa bir şeyi Allaha oxşadıb ona dua etsə, öləndə cəhənnəmə düşəcək» Bu hədisi Buxari rəvayət etmişdir. Müslim də Cabirdən belə rəvayət edir Rəsullulah buyurub: «Kim Allaha bir şeyi şərik qoşmadan Onun hüzuruna getsə, cənnətə düşər, kim Ona bir şeyi şərik qoşub Onun hüzuruna getsə, cəhÿnnəmə düşər»[47].

İbn Abbasdan rəvayət olunur ki, Rəsulullah Müazı Yəmənə göndərəndə ona demişdir: «Sən kitab əhlindən olan adamların yanına gedirsən, Onlara ilk dəvətin «La ilahə illəllah» şəhadəti olsun»[48].

Peyğəmbər əleyhissəlamın belə dediyi rəvayət olunur: «La ilahə illəllah» deyib Allahdan başqa ibadət olunan hər bir şeyi inkar edən adamın malına qəsd etmək və qanını tökmək haramdır. Onunla haqq-hesabı qüdrətli və böyük Allah özü çəkəcək»[49]. Məhəmməd bin Əbdülvəhhabın «Tövhid» kitabındakı izahatı və tövhid haqqındakı fikirləri belədir: «əl-İsra» surəsindəki ayədə əməli saleh adamları bütlərə inanmağa çağıran müşriklərə cavab verilir. Elə bu ayədə onların bu dəvətinin ən böyük şirk olması bəyan edilir.

Peyğəmbərimizin «La ilahə illəllah» deyib, Allahdan başqa ibadət olunan hər bir şeyi inkar edən adamın malına qəsd etmək və qanını tökmək haramdır. Onunla haqq hesabı Allah özü çəkəcək, sözüdür»[50]. Məhəmməd bin Əbdülvəhhaba görə bu sözlərin izahı belədir:

Bu «La ilahə illəllah»ın mənasını aydınlaşdıran ən böyük misaldır. Buradan məlum olur ki, bu şəhadəti yalnız tələffüz etmək insanın qanını və canını tam toxunulmaz etmir. İnsana bu ifadəni tələffüz etməsi ilə yanaşı onun mənasını bilməsi, onu təsdiq etməsi, yalnız heç bir şəriki olmayan Allaha dua etməsi də onun malına qəsd etməyi və qanını tökməyi haram etmir. İnsan Allahdan başqa nəyəsə ibadət etməsi ilə bu küfrünü artırırsa, onun bağışlanmasından söhbət gedə bilməz. Belə olduqda Al-

---

47 Canan İ., a.g.e., I, s.35- 37
48 Davutoğlu A., Sahihi Müslim (tercüme ve şerhi), İstanbul, Sönmez, I, s.173
49 Davutoğlu A., a.g.e., I, s 195
50 Canan İ., Hadis Ansiklopedisi (kutubu sitte), İstanbul, Akçağ, I, s.101

laha şəkk edən və iman gətirməkdə tərəddüd edən adamın malına qəsd edilməsi və qanının tökülməsi də qadağan olmaz»[51].

Yuxarıda bəzi ayə və hədislərin Məhəmməd bin Əbdülvəhhabın «Tövhid kitabı» adlı əsərindəki izahını verdik. Onun günümüzdəki müsəlmanların bir çoxunu müşrikliklə günahlandırarkən əsaslnadığı ayələrin hamısı cahiliyə dövrü ərəbləri və onlardan əvvəlkilər haqqında nazil olmuşdur. Onu da bildirmək istərdim ki, İslam dini bir neçə surədən yaxud səhih hədislərdən ibarət olan din deyildir. İslam dinindəki ayə və hədislərdən bir hökm çıxararkən Quranın və hədislərin bütününü ələ almaq lazımdır. Sonuncu hədisin izahına xüsusilə diqqəti cəlb etmək istərdim. Bu hədisin izahından elə başa düşülür ki, Məhəmməd bin Əbdülvəhhabın izah etdiyi şəkildə bu dinə inanmayanların malı və qanı «müvəhhidlərə» halaldır. Burada Peyğəmbərimizin islamı təbliğ metodu tamamilə yaddan çıxarılmış, ayə və hədislərə öz arzularına görə izah verilmişdir. Bu da islam dininin qoyduğu prinsiplərə uyğun deyil.

Bizim fikrimizcə, vəhhabilərin ən böyük səhvi özlərindən başqa bütün islam məzhəblərindən olan insanları "əməli-tövhidə" əsaslanaraq müşrikliklə günahlandırmalarıdır.

Əhli-sünnə, "tövhidi" İbn Əbdülvəhhabın başa düşdüyü kimi dar çərçivədə ələ almamış və onun kimi şəxsi fikirləri ön plana çıxarmamışdır. Tövhidi çox bəsit və dar çərçivədə anlamasına, bu anlayışa uyğun əməl olunmasına təkid etdiyinə görə Məhəmməd bin Əbdülvəhhab əhlisünnədən uzaqlaşmışdır. Onlar özlərini «əməldə və etiqadda Hənbəli» adlandırmalarına baxmayaraq, Əhməd bin Hənbəlin fikirlərinə də o qədər bağlı qalmamışlar. Biz əgər Əhməd bin Hənbəlin iman, tövhid və şirk haqqında fikirlərinə nəzər salsaq görərik ki, vəhhabilərin prinsipləri ilə onun sözləri arasında çox böyük fərqlər vardır. Əhməd bin Hənbələ görə, iman, həm söz, həm də əməldir. Yaxşı əməllər imanımızı artırar. Pis əməllər isə azaldar, əksildər. İnsan etdiyi pis əməllərə görə imandan çıxar, amma tövbə edərsə, yenə imanlı olar. Allaha ortaq qoşan, fərzlərdən

[51] Məhəmməd ibn Süleyman ət-Təmimi əl-Həmbəli, Tövhid kitabı, (ərəb dilindən tərcümə edən: Əmirəhmədov. Ə.), Bakı, Azərbaycan dövlət kitab palatası, 1996, s.18-19

hər hansı birini inkar edən insan dindən çıxar. Təmbəllik üzündən fərzlərdən birini tərk edən insanın vəziyyətini Allah təyin edir. O istərsə bağışlayar, istərsə əzab edər. İbn Hənbələ görə iman, qəlb ilə təsdiq, dil ilə söyləmək və bədən üzvləri ilə əməl etməkdir. İslam isə təsdiq etməklə bunu söyləməkdir. Buna görə də Allaha şərik qoşmamaq, Quran və sünnədə sabit olan bir əmri inkar etməmək şərti ilə əməllərdən hər hansı biri tərk edilərsə bu insan dindən çıxmış sayılmaz. Kafirlik isə şirk və inkardır[52].

Dinin hər hansı bir hökmünü rədd etməyən, kəlimeyi şəhadəti dili ilə deyən insan müsəlmandır. Vacibləri yerinə yetirməyəni kafir adlandırmaq doğru deyildir. Peyğəmbərimizin bu mövzuya hədislərində çox yer verdiyi görülür. Peyğəmbərimiz bir hədisində belə buyurur: «Mən insanlarla Lə ilahə illəllah deyənədək mübarizə aparmaq üçün əmr aldım. Kim lə ilahə illəllah deyərsə o malını və canını qorumuşdur. Onun hökmü və hesabı Allaha qalmışdır». Bu barədə Üsamənin başına gələn hadisə çox mühümdür. Müharibədə Üsamə düşməninə qalib gəldiyi vaxt döyüşdüyü müşrük kəlimeyi şəhadəti dedi. Lakin Üsamə onun bu şəhadəti ölümdən canını qurtarmaq üçün söylədiyini fikirləşərək həmin adamı öldürür. Hadisədən Peyğəmbərimiz xəbər tutduqda Üsaməyə deyir: «Kəlimeyi şəhadəti deyəni nə üçün öldürdün?» Üsamə özünü müdafiə etdikdə Peyğəmbərimiz eyni sözləri bir neçə dəfə təkrar etdi... və dedi: «Sən onun ürəyini yarıb baxdınmı səmimi olub olmadığını biləsən?»[53].

Vəhhabilərin səhvə yol verdikləri nöqtələrdən biri də iman və İslam məsələlərini eyniləşdirmələridir. Əgər bunların hər ikisini eyni bir şey hesab etsək, təmbəlliyə yaxud başqa səbəblərə görə ibadəti tərk edən bütün müsəlmanları kafir hesab etmiş olarıq.

(Devamı var)

---

[52] Fiğlalı R.E., Çağımızda itikadi islam mezhebleri, Ankara,Selcuk yayınları, 1996, s.104

[53] Canan İ., Hadis Ansiklopedisi (kutubu sitte), İstanbul, Akçağ, I, s .102